# Süleyman Rəhimovun həyat və fəaliyyətinin əsas tarixləri

*Sülüyman Hüseyn oğlu Rəhimov 1900-cü il, martın 22-də Qubadlı rayonunun Əyin kəndində anadan olub. Süleyman kənd mollasından əlifbanı öyrənib.*

| | |
|---|---|
| **1912** | Qubadlıda beşillik rus məktəbində oxuyub. |
| **1917** | Rusiyada çar mütləqiyyətini devirən Fevral burjua-demokratik inqilabından sonra məktəb bağlanmış, sonuncu sinfi bitirmədən Əyin kəndinə qayıtmışdır. |
| **1921** | Şuşada açılan pedaqoji kursa göndərilib və burada təhsilini başa vurduqdan sonra o zaman Qubadlı nahiyəsinin mərkəzi sayılan Xanlıq kəndində müəllimliyə başlamışdır. |
| **1923-1924** | Laçın rayonunun Hocaz kəndində məktəb müdiri vəzifəsində çalışmışdır. |
| **1928-1931** | Bakıya gələrək Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində oxuyub, həm də savadsızlığı ləğv edən kurslarda dərs deyib. |
| **1930** | Ədəbi fəaliyyətə başlayıb. İlk əsəri böyük həcmli "Şamo" romanını yazıb. |
| **1931** | "Şamo" romanının ilk variantı çapdan çıxıb. |
| **1934-1937** | Azərbaycanın Laçın, Samux, Şahbuz və Noraşen rayonlarında rəhbər vəzifələrdə çalışıb. |
| **1938** | Bakıya gəlmişdir;<br>İyun ayında Azərbaycan SSR Nazirlər Soveti yanında Respublika İncəsənət İşləri İdarəsinin repertuar komitəsinin sədri vəzifəsinə təyin edilmişdir;<br>Azərbaycan Yazıçılar İttifaqının (indiki AYB) üzvü seçilmişdir. |
| **1939–1940** | Azərbaycan Sovet Yazıçıları İttifaqının sədri olmuşdur.<br>“Şamo” romanın ilk variantı çox yığcam və kiçik həcmli olduğundan əsərin hadisələrin epik təsvirini verən yeni variantının birinci cildini yazıb çap etdirmişdir. |
| **1940-1941** | Azərbaycan KP Bakı Komitəsinin katib vəzifəsini icra etmişdir. |

| | |
|---|---|
| **1941-1944** | Azərbaycan KP MK-da Təbliğat və təşviqat şöbəsinin müdir müavini vəzifələrində çalışıb. |
| **1941-1945** | Sovet qoşun hissələri ilə Təbrizə gedib. Cənubi Azərbaycanın bir çox şəhər və kəndlərini gəzib, “Vətən yolu” qəzetində “Səngərli” imzası ilə çıxış edib, Təbriz uşaqlarının ağır həyatını təsvir edən “Nənəmin ölümü” hekayəsini yazıb. |
| **1942** | SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə “Şərəf nişanı” ordeni ilə təltif edilmişdir; |
| | “Aynalı” və “Medalyon” povestləri “Uşaqgəncnəşr”də çapdan çıxmışdır. |
| **1942** | "Şərəf nişanı" ordeni ilə təltif olunub. |
| | Xalq qəhrəmanları Qaçaq Nəbi və Həcərin bənzərsiz obrazlarını yaratdığı “Aynalı povesti çapdan çıxıb. |
| **1942-1945** | Marks-Engels-Lenin İnstitutunun Azərbaycan filialının direktoru (əvəzçilik üzrə) vəzifəsində çalışmışdır. |
| **1944** | “Saçlı” romanını və “Mehman” povestini yazıb. |
| **1944–1946** | Azərbaycan Yazıçılar Birliyinin sədri olub. |
| **1945-1958** | Azərbaycan Nazirlər Soveti yanında Mədəni-Maarif İşləri Komitəsinin sədri vəzifələrində işləyib. |
| **1946** | “Lenin ordeni” ilə təltif olunub. |
| **1949** | "Ata və oğul" əsəri və “Şamo” romanının 2-ci cildi nəşr olunub |
| **1954–1958** | Azərbaycan Sovet Yazıçılar İttifaqının sədri vəzifəsində çalışıb. |
| **1955** | Dördüncü çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. |
| **1956** | “Şamo” romanının ikinci cildinin təkmilləşdirilmiş nəşri çapdan çıxmışdır. |
| **1958** | “Seçilmiş əsərləri”nin birinci cildi oxuculara təqdim edilmişdir. |
| **1959** | "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilib. |
| **1960** | “Azərbaycan SSR xalq yazıçısı” fəxri adını alıb. |
| **1964** | “Şamo” romanının 3-cü cildi çapdan çıxıb. |

| | |
|---|---|
| **1970** | İkinci dəfə “Lenin” ordeni ilə təltif edilib. |
| **1971-1975** | Üç cilddən ibarət “Qafqaz qartalı” romanı çap olunub. |
| **1972** | "Qızıl qələm" mükafatı almışdır. |
| **1975** | Sosialist Əməyi Qəhrəmanı və üçüncü dəfə “Lenin” ordeni alıb; |
| | M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası tərəfindən “Xalq yazıçısı Süleyman Rəhimov” biblioqrafiyası çap edilmişdir (müəl.: Məryəm Nəcəfova, Ağakərim Quliyev); |
| | Professor Yəhya Seyidovun “Süleyman Rəhimovun romanları” kitabı “Elm” nəşriyyatında işıq üzü Görmüşdür; |
| **1978** | “Şamo” romanının sonuncu, 4-cü cildi nəşr edilib. |
| **1980** | SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı ilə "Xalqlar Dostluğu" ordeni ilə təltif edilmişdir. |
| **1983** | Bakı şəhərində vəfat edib və Fəxri xiyabanda dəfn olunub. |
| **2005** | “Müasir Azərbaycan ədəbiyyatı” seriyasından iki clddə “Seçilmiş əsərləri” “Şərq-Qərb” nəşriyyatında latın qrafikası ilə çap olunmuşdur; |
| | “İşıq” və “Təhsil” nəşriyyatlarında “Süleyman Rəhimov” fotoalbomları çap edilmişdir. |
| **2010** | Şamo Arifin tərtibçiliyi ilə “Dədə Süleyman dünyası” xatirələr kitabı “Mars Print” nəşriyyatında çap edil - mişdir; |
| **2013** | Özü və iki övladı – Şamo Rəhimov və Şamo Arifin həyatından bəhs edən “Ayrıldıq ki, qovuşaq” adlı qısa-metrajlı sənədli televiziya filmi “Azad Azərbaycan” TV-də istehsal olunmuşdur. |
| **2019** | “Şamo” romanı dörd clddə “Çaşıoğlu” nəşriyyatında çapdan çıxmışdır. |
| **2020** | Anadan olmasının 120 illiyi münasibətilə Milli Kitabxana tərəfindən “Süleyman Rəhimov” funda-mental biblioqrafiyası tərtib edilərək nəşr edilmişdir. |
| **2025** | C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında yazıçının 125 illik yubileyi münasibətilə elektron məlumat bazası hazırlanıb kitabxananın saytında (ryl.az) yerləşdirilmişdir. |

Milli Kitabxana tərəfindən “Süleyman Rəhimov -125” başlığı altında vuirtual sərgi hazırlanıb kitabxananın saytında (anl.az) yerləşdirilərək oxuculara təqdim olunmuşdur.